

Oqtay Rza

## Tövsiyəli sətirlərim

Öz-özünə yaranmayıb
Ürəyimin hərarəti,
Güvəndiyim, inandığım
Ulu qüvvə ədalətdir;
Bayrağıma çevirmişəm
Əzəl gündən həqiqəti,
Çünki düzlük babalardan,
Nənələrdən əmanətdir.

Həyat təzad meydanıdır -
Dolayları çətin, asan;
Qüdrətinlə zirvəyə qalx,
Zəhmətinlə zəfər qazan!
Gec-tez özü düşəcəkdir
Başqasına quyu qazan,
İnsan kimi yaşamağın
Bər-bəzəyi ləyaqətdir!

İnadkarlıq nəyə gərək,
Bəyaz qara demə qara;
Qəlbin yuva olmalıdır
Çiçəklənən duyğulara.
Gül bülbülə ilham verər,
Könül yara, mizrab tara.
Məhəbbətin gözətçisi
Etibardır, sədaqətdir.

Gözəlliyin mənasını
Bilənlərin heyranıyam,
Bir yalqızın harayına
Gələnlərin həyanıyam;
Tikəsini təmənnasız
Bölənlərin mehmanıyam.
Məqsəd güdən yaxşılığı
Qəbul etmək qəbahətdir.

Böyük, kiçik məclisində
Nə lovğalan, nə də əyil!
Qızmar çölün ilğımıtək
Yoxa çıxar sısqa meyl;
Hər vurulan Məcnun olmaz,
Hər sevilən Leyli deyil;
Eşqə düşüb ömür boyu
Şölələnmək səadətdir!

## Borc

Bir gül üçün dağ laləsi dərəm gərək,
Bir qəribə yolu nişan verəm gərək;
Bir yetimin toy gününü görəm gərək,
Yaxşılığı əzəl borcum bilə-bilə yaşayıram!
Don geyilib, dən yeyilib, un udulub
Acgöz diri ola-ola unudulub;
Kisəsinə min adamın unu dolub.
Mən köçəndə adım qalsa, səsim qalsa,
El içində sədam qalsa, sözüm qalsa,
Ürək boyda odum qalsa, közüm qalsa,
Saçıb şölə yaşayıram,
Demək hələ yaşayıram!

***

Əzəldən günəşli, nurludur dünya,
Əzəldən qocaman, uludur dünya;
Sayı çoxalsa da pisin, xəbisin,
Yaxşı adamlarla doludur dünya!

Biri mərd, biri sərt, biri fağırdır,
Dünya, çəkdiyin yük yaman ağırdır.
Yaxşı adamların hamısı ilə
Görüşüb dost olmaq heyif nağıldır!

Qələm götürmürəm ad-san naminə,
Yazıram saf, təmiz vicdan naminə.
Xeyirxah həmişə yaxşı iş görür
Özündən sonrakı insan naminə!

## Paxıllıq

Əgər baş tutmasa qara niyyəti,
Qara paltarını geyər paxıllıq;
Gah boz, gah qırmızı olar sifəti,
Bəzən öz-özünü söyər paxıllıq!

Nəğməm, coş Qoçalan, Həkəri kimi,
Hirsindən görünsün sərsəri kimi;
Müdrik İsgəndərin bərbəri kimi
Sirri quyuya da deyər paxıllıq!

Fitnəsi yerisə sanki bal dadır,
Var saxta gülüşü, saxta fəryadı;
Budaqtək qurudub gənc istedadı,
Yolu uçuruma əyər paxıllıq!

Pislik hüceyrəsi gəzər qanında,
O qılınc gizlənib qalmır qınında;
Tək-tək alimin də, yazıcının da
İçini gəmirib yeyər paxıllıq!

Həzz alar xeyirxah kəsin yasından,
Nəşə qamarlayar qəm havasından;
Çıxa bilməyəndə dar yuvasından,
Başına, gözünə döyər paxıllıq!

## ...Olmasın!

Ustad sözü düz deyir,
Heç doxsana yüz deyir?
Cəmiyyətdə az deyil
İçi xıltlı adamlar.

Dönə-dönə alçalan,
Enə-enə alçalan,
Yenə, yenə alçalan,
İçi xıltlı adamlar.

Tez oturub, gec dinər,
Canında xof gizlənər.
Görəsən təmizlənər
İçi xıltlı adamlar?

Bəd əməl sanki oxdur,
Hələ də sayı çoxdur.
Hansı ölkədə yoxdur
İçi xıltlı adamlar?

Ay saçları ağarmış,
Yayda dolu yağarmış
Min il əvvəl də varmış
İçi xıltlı adamlar!

Boz təpə "dağ" olmasın,
Sıramız dağılmasın;
Kaş daha doğulmasın
İçi xıltlı adamlar!

Ədalət 2019.- 1 avqust.- S.8.